# USTAD XANƏNDƏ, BƏSTƏKAR...

Əlibaba Balaəhməd oğlu Məmmədov 1930-cu il fefralın 5-də Bakının Maştağa kəndində anadan olmuşdur. Maştağada iki il 128 saylı orta məktəbdə oxumuş, ailə Zabrat kəndinə köçdüyü üçün IV sinifdən təhsilini buradakı məktəbdə davam etdirərək natamam orta təhsili (VII sinfi) bitirərək Sabunçu qəsəbəsində yerləşən 1 saylı texniki peşə məktəbinə daxil olaraq neft buruqlarında qazmaçı ixtisası üzrə oxumuşdur. Əla qimətlərlə oxuduğu üçün onu II kursdan Bakı Neft Texnikumuna keçiriblər. O zaman bu təhsil müəssisəsi Bakıxanov (əvvəlki Razin) qəsəbəsində yerləşirdi. Əlibaba burada da əla qimətlərlə oxuyurdu, yalnız rus dili fənnindən 4 almışdı. Onu yaxşı kadr kimi Türkmənistana Nebitdağa göndərirlər. Burada özünü əsl kadr, yüksək bacarıqlı neftçi kimi göstərdiyi üçün müəssisənin direktoru Seçavoy Əlibabanı çağırıb söhbət aparır və onu Aşqabada ali məktəbə təsil almağa gördərəcəyini bildirir. Aşqabad şəhəri güclü zəlzələ nəticəsində dağıldğı üçün bu iş baş tutmur.

Əlibaba uşaqlıqda, gənclikdə istedadı ilə öz nəsil nümayəndələri, yaşıdları, həmkəndliləri, məktəb yoldaşları arasında fərqlənmiş və daim diqqəti çəlb etmişdir. O, tar, nağara və klarnet alətlərində ifa etməyi öyrənmişdir. Nebitdağdan Bakıya qayıdandan sonra Əlibaba klarnet ifaçıları ilə yoldaşlığa qatılaraq toylara gedir. Həmin dövrdə Bakıda belə musiqi üçlüklərini-klarnet, dəmkeş balabançı və nağaraşalan-xanəndəni toy-nişan məclislərinə dəvət etmək adət şəklini almışdı. Elə gənclik illərində Ə.Məmmədov da toylarda o zamanın tələbinə uyğun olaraq az müddət də olsa nağaraçalan-xanəndə kimi çıxış edərək sevimli ifaçı kimi qarşılanır. Onun xanəndə kimi yetişməsində Bakının və Abşeron kəndlərinin özünəməxsus, zəngin, tələbkar muğam mühiti böyük rol oynamışdır. Sənətə ilk qədəmlərindən o, müntəzəm öz üzərində işləmiş, həmişə axtarışda olaraq ifa qabiliyyətini və biliyini zənginləşdirmişdir. Qeyri-adi musiqi yaddaşı daim ona yardımçı olmuş, inkişaf yollarına işıq salmışdır. Hər hansı qəzəli, melodiyanı öyrənmək ona heç vaxt çətin olmamışdır. Odur ki, Ə.Məmmədovun repertuarı həmişə rəngarəng, çoxşaxəli və zəngin olub. Əzbərində xeyli qəzəllər və qoşmalar olduğu üçün konsertlər və toylarda daim yeni mövzulara yer vermişdir.

Əlibabanın əmisi Güləhməd Məmmədov da bir müddət xanəndəlik etmiş və Bakı kədlərinin toylarında oxumuşdu. Əlibaba doğma kəndi Maştağa toylarında əmisi Güləhmədi, tanınan xanəndələrdən Zülfü Adıgözəlovu, Mütəllim Mütəllimovu, Əbülfət Əliyevi, Hacıbaba Hüseynovu və başqalarını dəfələrlə dinləmiş və onda muğam sənətinə, xanəndəliyə böyük maraq oyanmışdı. O, xatırlayır ki, Xan Şuşinskini bir dəfə Kürdəxanı kəndinin toyunda görüb.

Ə. Məmmədov musiqi təhsilini 1953–1958 ci illərdə A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində almışdır. O, burada fəal , özünə qarşı tələbkar tələbə olraq ustad Seyid Şuşinskinin dərs dediyi sinifdə muğamın sirlərinə dərindən bələd olmuş, özü də bu janra aid araşdırmalar edərək çox şey əxz etmişdir. Əlibaba S.Şuşinskiyə müxtəlif suallar verərək tutarlı cavab almayınca əl şəkməz, bəzən polemika açar, hətta mübahisə edərək ustadının dilindən eşidərək daha inçə mətləblərə yiyələnərdi. O, çəkildiyi televiziya verlişlərində bu barədə söz açır. Gənc Əlibaba sinifdən kənar harada muğama aid nəyi eşidir, nəyə rast gəlirdisə, bunların doğru təsdiqini dərs zamanı ustadından eşidərək aydınlaşdırardı. Belə tələbkarlıq təbii ki, hər tələbədə, hər muğam öyrənmək istəyənlərdə olmur, gənc Əlibabada isə bu üstün çəhətlər var idi. Odur ki, o, əsl muğam ifaçısı, dərin biliyə malik sənətkar kimi yetişərək, ömrün yaşlı çağlarında bu janrın tədrisində nümunəyə çevrildi və ustad adını qazandı.



Ə.Məmmədov 1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının, 1978–1988 illərdə Azərbaycan Qastrol və Konsert Birliyinin solisti olmuşdur. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə çıxış edən xanəndələr-Bülbül, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova ilə bir sırada Əlibaba Məmmədov da olmuşdur. Ə.-Məmmədov orada “Bayatı-kürd” oxumuşdur.

Bütün xanəndələrimiz kimi Ə.-Məmmədov da Azərbaycan radiosunun fonduna muğamlar yazdırmışdır. Onun böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı-Şiraz, "Hümayun", "Rahab", "Dəşti" və başqa muğam dəsgahlarının səs yazıları Azərbaycan Teleradio Verilişləri QSC-nın fondunda qorunur və yayımlanır. Əlibaba Məmmədov ən yaxşı, təcrübəli, həssas, bacarıqlı və əsl mahnı bəstəkarıdır. O, 100-dən artıq mahnı və təsniflər yaratmışdır ki, özünün, əksər xanəndələrin və yetirmələrinin repertuarında radio fonduna yazılmış, televiziya məkanında və səhnələrdə səslənmişdir. Sənətkarın mahnıları Azərbaycan mahnı yaradıcılığnın tələbinə tam uyğundur və lazım olan bütün xüsusiyyətləri özündə cəmləşdirir. Əlibaba müəllimin bütün muğamlarımızın üzərində bəstələdiyi mahnılarının bu janrın qaydalarına uyğun olaraq bəmi, ortası, zili, nəqarəti, süjet xətti, dərin məzmunu və bədii-estetik dəyəri var. O, mahnı mətni seçmək və üzərində iş aparmaqda da çox pərgardır. Əlibaba müəllim bir bəstəkar olaraq sözlərlə işləməyi çox yaxşı bacarır, hansı şeiri hansı mahnının musiqisində işlətməyi ustalıqla təyin edir. Onun yaratdığı mahnı və təsniflər hazırda da repertuardan düşmür. Azərbaycanda keçirilən muğam müsabiqələri bir daha göstərdi və sübut etdi ki, Ə.Məmmədovun əsərləri yaşayır, istfadə olunur, bütün dövlər üçün müasir və aktualdır. Onun bəstələdiyi muğam dərəmədləri və rəngləri də vardır ki, “Hümayun” ansamblının repertuarında səslənmiş və radio fondu üçün lentə alınmışdır. Azərbaycanda fəaliyyət göstərən bir sıra xalq çalğı alətləri ansamblları və muğam üçlüklərinin repertuarında da Ə.Məmmədovun dəraməd və rənglərinə rast gəlmək mümkündür.

Ə.Məmmədovun Azərbaycan şairlərindən M.Füzuli, M.Müşviq, S.Rüstəm, B.Vahabzadə və başqalarının sözlərinə bəstələdiyi mahnılar axıcı, könül oxşayan, ruha qida verən, zövqü təmin edən, hissləri oyadan, böyük təsir gücünə malik olan nümunələrdir. İncə, həssas duyumlara, duyğusal hisslərə, dərin estetik mahiyyətə malik bu mahnıların hər biri doğrudan da böyük dəyər daşıyır. Onun təsniflərinin hər biri öz səviyyəsinə, tutumuna, dəyərinə görə xüsusi mahiyyətə malikdir. Ustad xanəndə olaraq o, təsnif pərgarıdır. Bu barədə danışanda onun “Rast”, Bayatı-Şiraz”, “Şur”, “Çahargah”, “Segah”, və “Dəşti” muğamlarının çalarlarında bəstələdiyi təsnifləri qeyd etmək və “Hümayun təsnifi”ni xüsusi vurğulamalıyıq.

XX yüzilin II yarısında o, muğam aləmində mahir təsnif yaradıcısı və ifaçısı kimi qəbul olunurdu. Bütün bunlar onun yalnız istedadının deyil, həm də novatorluğunun nəticəsi idi.

Ə.Məmmədov vətənpərvərlik mövzusunda da mahnılar yazıb. Onun şair Əliağa Vahidin sözlərinə bəsətələdiyi "Vətən yaxşıdır" mahnısı 44 günlük Vətən müharibəsinin qəhrəmanlarından biri, şəhid olmuş gizir rütbəli Xudayar Yusfifzədənin dilində, səsində böyük sevgi qazanaraq əsl dastana döndü və "Xudayar təsnifi" adını aldı. Düşünürəm ki, bu təsnifin izini tutub tədqiqat apararaq "Xudayar dastanı" yaratmaq olar. Bu iş isə yazarlarımızın, açqılarımızın üzərinə düşür.

Əlibaba Məmmədov 1963-cü ildən A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbi (hazırda AMK-nın tərkibində Musiqi Kolleci), daha sonra Bülbül adına Orta İxtisas Musiqi Məktəbi və Biləcəridəki Uşaq İncəsənət Məktəbində muğamı tədris etmişdir. O, bütün Muğam Müsabiqələrində münsiflər heyətinin üzvü olaraq öz obyektiv yanaşması, doğru tövsiyələri ilə seçilmiş, musiqi cameəsində və bütünlükdə xalq arasında dərin rəğbət qazanmışdır.

Ə.Məmmədov 1968-ci ildə Dövlət Filarmoniyasının direktoru SSRİ xalq artisti Maestro Niyazinin təklifi ilə burada “Hümayun” xalq çalğı alətləri ansamblı yaratmışdır. Ansambl səmərəli və zəngin fəaliyyət göstrmiş, filarmoniyada, Bakıdakı təhsil və mədəniyyət müəssisilərində, Azərbaycanın bütün bölgələrində, Zaqfqaziya respublikalarında, bütünlükdə isə Sovet ölkəsi məkanında konsertlər vermişdir. Bu ansamblın müğənniləri Novruz Feyzullayev, Təhmiras Şirinov, Zümrüd Məmmədova, Məmmədbağır Bağırzadə, Validə Mahmudova, Səxavət Məmmədov, Yusif Mustafayev və İlkağa Şahbazov olmuşdur. “Hümayun” 1978-ci ildən fəaliyyətini Azərbaycan Qastrol-Konsert Birliyində davam etdirmişdir.

Əlibaba Məmmədova 1963-cü il mayın 17-də Azərbaycan SSR-in əməkdar, 1989-cu il mayın 18-də xalq artisti fəxri adı verilmişdir.

Mükafatları: 4 fefral 2000-ci il Şöhrət ordeni, 10 may 2009-cu il “Qızıl çinar” beynəlxalq mükafatı, 3 fefral 2010-cu il İstiqlal ordeni, 4 fefral 2020-ci il Şərəf ordeni.

Ə.Məmmədov yorulmadan çalışıb səmərəli, samballı, zəngin fəaliyyət göstərərək, Azərbaycan musiqi mədəniyyətinə öz misilsiz təhfələrini verərək adını musiqi mədəniyyəti tarixinə qızıl həriflərlə yazmışdır.



*Əhsən Rəhmanlı*
*tədqiqatçı,*